

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 74 (21.484)

23 aprel 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasiri qəbul edib.

Dövlətimizin başçısı BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasirin Azərbaycanın yaxın dostu olduğunu, BMT-Azərbaycan tərəfdaşlığının genişləndirilməsində əhəmiyyətli rol oynadığını deyib.

Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikası ilə qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsində və mədəniyyətlərarası dialoqun qurulmasında səmərəli fəaliyyətinə görə Nasir Əbdüləziz Əl-Nasirin Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunduğunu deyib və ordeni ona təqdim edib.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir tolerantlığın və dialoqun inkişafı baxımından ölkəmizin önəmini qeyd edib, xüsusilə Prezident İlham Əliyevin mədəniyyətlərarası dialoqun təbliğindəki liderliyini yüksək qiymətləndirib.

Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeninə layiq görülməsinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edən Nasir Əbdüləziz Əl-Nasir bu ordenə layiq görülməsindən qürur hissi keçirdiyini bildirib.

## Turizm və otelçilik ixtisasında təhsil alan tələbələrlə görüş



***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin Turizm və otelçilik ixtisasları üzrə təhsil alan tələbələri ilə görüş keçirib.***

Naxçıvan Dövlət Universitetində keçirilən görüşü ali məktəbin tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov açıb.

Mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin Turizm və otelçilik ixtisasları nazirliyin hamiliyinə verilib, bu ixtisaslarda təhsil alan tələbələrin hazırlıq səviyyələrinin artırılması məqsədilə seminarlar, elmi-nəzəri konfranslar, ekskursiyalar təşkil edilib.

Nazir muxtar respublikada turizmin inkişafından da danışıb. Bildirilib ki, bu gün ölkədə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. Təbiətimizin qorunması, dövlət əhəmiyyətli qoruqların yaradılması və mühafizə edilməsi, qədim maddi-mədəniyyət abidələrinin tədqiqi və bərpa olunması, müasir otellərin, istirahət mərkəzlərinin tikilməsi, həm yay, həm də qış turizmi üçün yüksək şəraitin yaradılması muxtar respublikada bu sahənin inkişafının göstəriciləridir.

Muxtar respublikada turizmin digər növləri ilə yanaşı, müalicə turizminin də inkişafından söz açan Natəvan Qədimova Azərbaycanın mineral su ehtiyatlarının 60 faizinin məhz bu bölgənin payına düşdüyünü vurğulayıb.

"Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi" mövzusunda keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı görülən işlər barədə məlumat verib.

Rektor ali məktəbin Turizm-informasiya mərkəzinin fəaliyyətindən danışaraq bildirib ki, mərkəzin yaradılmasında məqsəd müxtəlif tur paketlərinin hazırlanmasından, görülmüş işlərin nəticələrinin, videoçarxların sosial şəbəkədə yerləşdirilməsindən, həmçinin xüsusi kursların təşkilindən ibarətdir.

Sonda Naxçıvanın turizm potensialı haqqında film nümayiş olunub.

## "Elektron ödəniş sahəsində inkişaf istiqamətləri" adlı seminar keçirilib

***Aprelin 22-də Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə "Elektron ödəniş sahəsində inkişaf istiqamətləri" adlı seminar keçirilib. Tədbirdə muxtar respublikamızda fəaliyyət göstərən bankların nümayəndələri ilə yanaşı, Naxçıvan Dövlət Universitetində təhsil alan magistrantlar, "Naxçıvan" Universitetinin bakalavrları və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən hamiliyə götürülmüş Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisası üzrə təhsil alan tələbələr iştirak ediblər.***



Tədbiri giriş sözü ilə açan Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundov seminarın keçirilməsi məqsədindən danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2 mart 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası ilə əlaqədar idarə muxtar respublikada infrastruktur işlərinin davam etdirilməsi, müasir elektron xidmətlərin təklif olunması ilə bərabər, maarifləndirilmə və institusional mühitin yaradılması məsələlərinə də ciddi diqqət yetirir. Elektron ödəniş xidmətlərinin tətbiqinin kütləviləşdirilməsi ödənişlərin toplanılmasında hesabatlılığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsinə, vergidənyayınma hallarının aradan qaldırılması ilə dövlət müəssisə və təşkilatları tərəfindən pul vəsaitlərinin səmərəli istifadə olunmasına, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə də stimul yaradır. Vurğulanıb ki, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə birlikdə muxtar respublikanın şəhər və rayonlarında əhali arasında maarifləndirici tədbirlərin, orta, orta ixtisas və ali təhsil müəssisələrində nağdsız ödəniş vərdişlərinin inkişaf etdirilməsinə xidmət edən xüsusi məşğələlərin və seminar-treninqlərin təşkilini davam etdirir.

Sonra "2013-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız ödənişlərin həcminin artırılması üzrə Tədbirlər Planı" çərçivəsində görülmüş işlərlə bağlı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin mütəxəssisi Hafiz İsmayılbəylinin, "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da nəzərdə tutulmuş tədbirlərlə bağlı həmin şöbənin aparıcı mütəxəssisi Tural Şirəlizadənin çıxışları olub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

## Əmək yarmarkasında 24 nəfərə işə göndəriş verilib

***Ordubad rayonunda növbəti əmək yarmarkası keçirilib. Tədbiri giriş sözü ilə Ordubad Rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov açaraq bildirib ki, muxtar respublikada həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.***

Qeyd olunub ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikamızda daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu baxımdan yeni müəssisələrin fəaliyyətə başlamasına, sahibkarlığın inkişaf etdirilməsinə xüsusi önəm verilir. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib. Ordubad Rayon Məşğulluq Mərkəzi də öz işini bu istiqamətdə qurub.

Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Əli Heydərov çıxışında son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 17 təşkilatdan 148 boş iş yerinin çıxarıldığı yarmarkada 24 nəfərə işə göndəriş verilib.

## Dövlət Miqrasiya Xidməti maarifləndirici tədbirləri davam etdirir

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Şərur rayonunda təşkil olunan, inzibati ərazi dairələri üzrə nümayəndələrin, polis sahə müvəkkillərinin, sahibkarlıq subyektlərinin nümayəndələrinin və rayon sakinlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə xidmətin rəis müavini Elnur Məmmədov açıb.***



Bildirilib ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşları ilə bərabər, bütün hüquqlardan və azadlıqlardan istifadə edirlər, bütün vəzifələri yerinə yetirirlər. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Onlar Azərbaycan Respublikasının Konstitusiyasının, qanunlarının və digər qanunvericilik aktlarının tələblərinə riayət etməli, Azərbaycan xalqının adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında yaradılan turizm infrastrukturu, bu qədim diyarın zəngin tarixi, mədəniyyət və təbiət abidələri, regionun sosial-iqtisadi inkişafı və digər amillər buraya gələn turistlərin sayının gündən-günə artmasına səbəb olub. Odur ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hərəkətlərinin qanunlarımız çərçivəsində tənzimlənməsi təmin edilməlidir.

Sonra xidmətin əməkdaşlarından Tural Bayramovun "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olması və yaşaması", Samir Sadiqovun "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında əmək fəaliyyəti", Zakir Məmmədovun "Miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə mövcud qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət" mövzularında çıxışları olub.

Bildirilib ki, viza əsasında Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz. Azərbaycan Respublikasında 10 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 10 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi, onun pasportunun surətini internet informasiya ehtiyatı, elektron poçt vasitəsi ilə və ya şəxsən Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir.

Vurğulanıb ki, daxili əmək bazarının tələbatı nəzərə alınmaqla, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına əmək miqrasiyasına ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə məhdudiyyət qoyula bilər. Bu məhdudiyyətləri müəyyənləşdirmək üçün kvota tətbiq edilir. Kvota yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsindəki işlərin effektivliyinin artırılması məqsədilə tətbiq olunur.

Sonra çıxışlar ətrafında müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**

# Torpaq münasibətlərinin tənzimlənməsi yeni mərhələyə qədəm qoyub

*Sosial-iqtisadi problemlərin həllində, dinamik inkişafın təmin edilməsində torpaq münasibətlərinin tənzimlənməsi mühüm rol oynayır. İqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, yeni emal müəssisələrinin yaradılması kimi tədbirlər aqrar bölmənin sosial və sahə strukturuna ciddi təsir göstərmiş, zaman keçdikcə məzmunca yeni münasibətlərin formalaşmasını günün tələbinə çevirmişdir. Mülkiyyət hüquqlarının tənzimlənməsi sahəsində müvafiq dövlət siyasətinin daha da təkmilləşdirilməsi muxtar respublikamızda torpaq və əmlak münasibətlərinin inkişafını yeni mərhələyə yüksəltmişdir.*

Muxtar respublikada mülkiyyət hüquqlarının tənzimlənməsində vahid idarəçiliyi təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 may 2015-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılmış, 16 iyul 2015-ci il tarixli Fərmanı ilə "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın və "Torpaq sahəsinin planı və ölçüsü"nün təsviri təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2 aprel 2016-cı il tarixli "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsində, torpaqların elektron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsində olduqca mühüm əhəmiyyətə malikdir. Bu fərmanla "Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları" təsdiq edilmişdir.

Fərmana əsasən, muxtar respublikada dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sistemi yaradılacaq və rəqəmsal kadastr xəritəsi tərtib ediləcək. Dövlət orqanları tərəfindən aparılan sahəvi dövlət kadastrlarında torpaqlarla bağlı mövcud məlumatların, habelə aidiyyəti dövlət orqanları tərəfindən torpaqların münbitliyinin bərpası və artırılması istiqamətində həyata keçirilən tədbirlərin, torpaqlardan istifadə vəziyyətinin müəyyən olunması məqsədilə aparılan monitorinqlərin nəticələri barədə məlumatlar həmin sistemə daxil ediləcək. Sistemdə muxtar respublikanın bütün yaşayış məntəqələri üzrə daşınmaz əmlak obyektləri barədə məlumatlar, torpağın sahəsi və ölçüləri, kommunikasiya xətləri, mühafizə zonaları, torpağın yerləşmə vəziyyətini göstərən koordinatları, təyinatı, üzərindəki tikilini xarakterizə edən göstəricilər əks olunacaq.

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması nəticəsində muxtar respublikanın torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr uçotu aparılacaq.

Torpaq fondunun dəqiq uçotunun aparılması kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi üçün yeni ərazilərin müəyyənləşdirilməsini asanlaşdıracaq. Torpaq ehtiyatlarının elmi əsaslarla idarə edilməsi, onların münbitliyinin qorunması ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalına əlverişli şərait yaradacaq.

Nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində torpaq ehtiyatlarının istifadəsinə dövlət nəzarəti güclənəcək, torpaq idarəçiliyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi üçün geniş imkanlar yaranacaq. Dəqiq torpaq kadastrı məlumatları əsasında kənd təsərrüfatı məhsullarının istehsalının ixtisaslaşdırılmasına dair qərarların verilməsi asanlaşacaq.

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi zamanı fiziki və hüquqi şəxslərin mülkiyyətindəki və qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi bağların yerləşdiyi torpaqların, torpaq islahatı zamanı verilmiş pay torpaqlarının hüquqi və texniki sənədlərindəki məkan göstəriciləri ilə torpaqlardan faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud olan uyğunsuzluqlar (sərhəd, yerləşmə və konfiqurasiya fərqləri) aradan qaldırılacaq, kadastr xəritələri ilə bağlı problemlər həllini tapacaq. Torpaq bazarının bu sistem vasitəsilə tənzimlənməsi icarəyə götürülmüş, lakin istifadə olunmayan torpaqların aşkarlanmasına və istifadəyə verilməsinə şərait yaradacaq. Torpaqlardan istifadədə mövcud uyğunsuzluqlar şəhər, qəsəbə və kənd ərazi vahidləri üzrə torpaq sahələrinin dəqiqləşdirilməsi və qaydaya salınması layihələri əsasında aradan qaldırılacaq.

Torpaqların istifadəsində mövcud uyğunsuzluqların aradan qaldırılması torpaq sahələri üzərində hüquqları təsdiq edən sənədlərdə göstərilən sahə ölçüsü saxlanılmaqla aparılacaq. Torpaq sahəsinin faktiki ölçüləri hüquq müəyyənedici sənəddə göstərilən ölçülərdən artıq olduqda, zəbt olunmuş sahənin mülkiyyət növü və ölçüləri barədə məlumat sistemdə öz əksini tapacaq.

Sistemə daxil edilmiş torpaq sahələrinə dair məlumatlar əsasında daşınmaz əmlakın dövlət reyestrində üzərində hüquqlar qeydiyyata alınmış torpaq sahələrinə dair hüquqi və texniki sənədlərdə düzəlişlər edilməsi zərurəti barədə hüquq sahiblərinə bildiriş təqdim olunacaq, habelə qanunvericiliyin tələbinə uyğun olaraq hüquq sahibi olan mülkiyyətçilərin, istifadəçilərin və icarəçilərin ərizəsi əsasında daşınmaz əmlakın dövlət reyestrində düzəlişlər edilməsi və həmin düzəlişlərə uyğun yeni sənədlərin verilməsi təmin ediləcək.

Torpaqların elektron kadastr uçotu informasiya sistemi muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı işinin sadələşməsini təmin edəcək, torpaq sahəsinə dair texniki sənədlərin elektron sistem vasitəsilə verilməsinə, əmlak bankının təkmilləşməsinə və digər mühüm məsələlərin həllinə səbəb olacaq.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması məqsədilə hazırlıq işlərinə start verilib. Proqram təminatının xüsusiyyətləri, sistem üçün tələb olunan avadanlıqlar müəyyənləşdirilir, sistemə daxil ediləcək məlumatların strukturu öyrənilir.

Yeni texnologiyalardan, müasir çöl-ölçmə cihaz və avadanlıqlarından və aerokosmik çəkiliş materiallarından istifadə olunmaqla muxtar respublikanın bələdiyyələri üzrə mülkiyyət növündən və təyinatından asılı olmayaraq, bütün torpaq sahələrinin ölçüləri, sərhədləri, konfiqurasiyası dəqiqləşdirilir, torpaqların növləri üzrə kəmiyyət və keyfiyyət göstəricilərində baş verən dəyişikliklər müəyyən edilir. Bələdiyyələrin bonitirovka xəritələri hazırlanır.

Sistemin operativ fəaliyyətinin təmin edilməsi və müasir tələblərə cavab verən iş şəraitinin yaradılması məqsədilə komitənin yenidən qurulan inzibati binasında server otaqları ayrılmış, iş otaqlarına şəbəkə xətləri çəkilmişdir.

***Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi istiqamətində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi səylərini daha da artıracaqdır.***

**Nurlan FƏTƏLİYEV**
*Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı*

*İstehsal müəssisələri*

# Kiçik sahibkarlığın inkişafına hərtərəfli şərait yaradılıb

## *"Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsinin fəaliyyəti genişləndirilib*

***Muxtar respublikamızda bazar iqtisadiyyatının tələblərinə uyğun sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə muxtar respublikamızda fəaliyyət göstərən sahibkarlara maliyyə dəstəyi göstərilir, banklar və kredit təşkilatları tərəfindən onlara güzəştli kreditlər verilir. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verir, rəqabətqabiliyyətli müəssisələr həyata vəsiqə alır.***





Daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Kəngərli rayonunun Xok kəndində fəaliyyət göstərən "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsidir.

Sahibkar Rəşid Cəfərli bizimlə söhbətində qeyd etdi ki, daxili bazarı keyfiyyətli unlu-qənnadı məmulatları ilə təmin etmək məqsədilə kiçik bir sexdə fəaliyyətə başladıq. Açığını deyim ki, istehsal etdiyimiz məhsullara bu qədər tələbatın olacağını gözləmirdik. Lakin uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yarandı. Digər sahibkarlar kimi, biz də dövlət qayğısından bəhrələndik. 2013-cü ilin mart ayında müəssisə üçün Kəngərli rayonunun Xok kəndində 500 kvadratmetr torpaq sahəsi ayrıldı. Layihəyə uyğun olaraq, əraziyə elektrik, qaz və su xətləri çəkildi. İki mərtəbədən ibarət yeni bina inşa olundu. Binanın birinci mərtəbəsində xammal və hazır məhsulların saxlanılması üçün anbar, lavaş və kürə çörək istehsalı sahəsi, satış bölməsi, ikinci mərtəbəsində isə şirniyyat istehsalı sahəsi, iaşə xidməti göstərilməsi üçün yeməkxana, digər yardımçı otaqlar, inzibati heyət üçün ayrı-ayrı iş otaqları yerləşir.

Müəssisədə müxtəlif çeşiddə yüksəkkeyfiyyətli məhsullar istehsal etmək məqsədilə Türkiyənin və İran İslam Respublikasının bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. 2014-cü ilin aprel ayında istifadəyə verilən müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb. Soyuducu kamera ilə təmin olunmuş "Mercedes", "Fiat" və "Ford" markalı xüsusi avtomaşınlar alınıb. Həmçinin müəssisədə istehsal edilən məhsullara artan tələbatın ödənilməsi və birbaşa satışını təşkil etmək üçün Naxçıvan şəhərində fəaliyyət göstərən "Cahan" Alış-Veriş Mərkəzində "Nilay" müəssisəsinin müasir avadanlıqlarla təchiz edilmiş filialı açılıb, müxtəlif çeşiddə çörək və Şərq şirniyyatları istehsalına başlanılıb. Eyni zamanda istehsal edilən məhsulların müəssisədə satışı üçün yeni firma mağazası istifadəyə verilib. Toy şənlikləri, ad günləri, bayramlar və digər ziyafətlərlə əlaqədar hər kəsin zövqünə uyğun şirniyyatlar sifariş vermək üçün əlverişli şərait yaradılıb.

Müəssisədə xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək bütün texnoloji proseslərə, texniki təhlükəsizlik və sanitar-gigiyenik qaydalara ciddi əməl edilir. Daxili bazarın tələbatı öyrənilməklə istehlakçılara müxtəlif çeşidlərdə məhsullar təqdim edən müəssisədə lavaş, kürə çörəyi, Şərq, milli və Avropa şirniyyatları istehsalı sahələri fəaliyyət göstərir. Kürə (qara fırın) Türkiyədən alınıb gətirilib, odunla qızdırılır və odadavamlı kərpiclə istehsalçı şirkətin mütəxəssisləri tərəfindən hörülüb. Kürədə çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da çörəyin keyfiyyətində mühüm rol oynayır. Fəaliyyətə başladığı ilk illərdə 2-3 çeşiddə məhsul istehsal edilən müəssisədə hazırda 60 çeşiddə məhsul istehsal olunur. Müəssisədə daxili bazarın tələbatından artıq istifadə edilən məhsulların ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda satışa çıxarılması planlaşdırılır.

Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyəti genişləndirilən "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsi daxili bazarı müxtəlif çeşidlərdə keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, ixrac potensialı yaradıb, əhalinin məşğulluğunun təmin olunmasında mühüm rol oynayıb. İki-üç nəfərlə fəaliyyətə başlayan müəssisədə hazırda xidmət sahələri ilə birlikdə 20 nəfər çalışır. "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsinin sahibkarı Rəşid Cəfərliyə 2014-cü ilin yekunlarına görə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirliklərinin və Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin qalibi kimi diplom və plaket təqdim edilib.

Yüksəkkeyfiyyətli məhsul istehsalı üçün müasir texnoloji avadanlıqlarla təminat əsas şərtdirsə, bu avadanlıqları idarə edəcək, istehsal edilən məhsulun texnologiyasına dərindən yiyələnən mütəxəssislərin olması da vacib şərtlərdəndir. Odur ki, işçilərin ölkəmizin paytaxtı Bakı şəhərində və Türkiyə Respublikasında fəaliyyət göstərən bu sahə üzrə qabaqcıl təcrübəyə malik müəssisələrdə təcrübə keçmələri təmin olunub. Müəssisənin alıcı problemi yoxdur. Təkcə bir faktı qeyd edək ki, burada qara, ağ və kəpəkli çörək olmaqla, ümumilikdə, 24 çeşiddə çörək istehsal olunur. İnsan orqanizmi üçün vacib elementlərlə zəngin olan kəpəkli çörəyə tələbat daha çoxdur. Hazırda yeni çeşiddə çörək istehsalına hazırlıq görülür. Lerik rayonunda keramikadan hazırlanmış 2 ədəd daşınan təndir alınıb gətirilib. Bunun üçün müəssisədə ayrı-ayrı bölmələr yaradılır. Yeni çeşiddə çörək istehsalı üçün məhsuldar toxum sortlarına üstünlük verilməklə ötən ilin payızında 11 hektar sahədə taxıl əkilib. Taxıl zəmilərindən toplanılacaq məhsul bağlanmış müqaviləyə uyğun olaraq Culfa rayonunda fəaliyyət göstərən su dəyirmanlarında üyüdüləcək və bu undan istifadə ediləcək.

"Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsində işçilərə normal iş şəraiti yaradılıb, onlar xüsusi geyim formaları və servis xidməti ilə təmin olunublar. İşçilər yaradılan şəraitdən razılıqlarını bildirdilər.

*Nahar fasiləsinə çıxarkən jurnalist həmkarlarımdan biri – zəhmət olmasa, beş dəqiqə gözlə mağazadan çörək alım, Trabzon çörəyi, – deyib mağazaya tərəf getdi.*

*Qayıdanda – Naxçıvana Türkiyə çörəyi gətirilir, – deyə soruşdum.*

*Güldü:*

*–Yox, qardaş, Türkiyə texnologiyası ilə Naxçıvanda fəaliyyət göstərən "Nilay"ın istehsal etdiyi Trabzon çörəyidir.*

*Əlindəki çörəyi göstərib, – keyfiyyətinə də söz ola bilməz. Dadından doymaq olmur. Artıq bir ilə yaxındır ki, bu çörəyin alıcısıyam. Sizə də məsləhət görürəm, – dedi.*

**Kərəm HƏSƏNOV**



*YUNESKO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında aprelin 23-nü Ümumdünya Kitab və Müəllif Hüquqları Günü elan etmişdir.*

*23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür*

# Muxtar respublikada müəllif hüquqları qorunur

Kitab yarandığı gündən uzun bir tarixi yol keçməklə bəşəriyyətin inkişafında mühüm rol oynamışdır. Kitabın yaranması həm də müəlliflik hüququ ilə bağlı mühüm anlayışın meydana çıxmasına səbəb olmuşdur. Azərbaycanda müəllif hüququnun dəyərli səhifələri olan qədim əlyazmalar həm də tarixin dərinliklərindən gələn yazı mədəniyyətimizin göstəricisidir. Xalqımızın yaratdığı qədim şifahi xalq ədəbiyyatı nümunələri ilkin dövrlərdə ağızdan-ağıza keçərək yaşadılmış, sonralar isə daş, ağac, gil, dəri, kağız üzərinə köçürülərək zəmanəmizə qədər gəlib çatmışdır. Orta əsrlərdən başlayaraq şairlərimiz öz yaradıcılıqlarında poetik təxəllüslərini qeyd etməklə müəlliflik hüququnun əsasını qoymuşlar. O dövrün böyük ədəbiyyat və elm ustadları olan Xətib Təbrizi, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani, Nəsirəddin Tusi, Qətran Təbrizi, Bəhmənyar və digərlərinin əlyazmaları ölkəmizdən kənarda da böyük şöhrət qazanmışdır. Bu əlyazmalar dünyanın bir sıra ölkələrində bəşəriyyətin nadir sənət incisi kimi qorunub saxlanılır.

Ötən əsrin 70-ci illərindən başlayaraq ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyat sahələri yenidən qurulmuş, kitab nəşrinin kütləviliyinin təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, yaradıcı insanlara hərtərəfli qayğı göstərilmişdir. ***“Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyəti, ədəbiyyatıdır”***, – deyən ulu öndərimiz müstəqillik illərində kitab nəşri və müəlliflik hüququ sahəsində daha geniş və ardıcıl tədbirlər həyata keçirmişdir. 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1998-ci ildə “Kitabxana işi haqqında”, 2000-ci ildə “Nəşriyyat işi haqqında”, 2002-ci ildə “İnteqral sxem topologiyalarının qorunması haqqında”, 2003-cü ildə “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası qanunlarının qəbul olunması bu sahədə zəngin qanunvericilik bazasının yaradılmasına səbəb olmuşdur. Bu işlərin davamı olaraq ölkəmizdə Müəllif Hüquqları Agentliyi yaradılmış, Azərbaycan Respublikası “Ədəbi-bədii əsərlərin qorunması haqqında” Bern Konvensiyası və “Müəllif hüquqları haqqında” Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa başlamışdır.

Ulu öndərimiz demişdir: ***“Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi-ictimai həyatında çox görkəmli yer tutur. Ona görə də hər birimiz kitablara borcluyuq”.*** Bu gün Azərbaycanda kitab nəşri və kitabxanaların fəaliyyətinin gücləndirilməsi, o cümlədən müəllif hüquqlarının qorunması sahəsində ardıcıl işlər görülür. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”, “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında”, “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamlar bu işlərin miqyasını daha da genişləndirmişdir. Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, ədəbiyyatı, memarlığı, mədəni irsi haqqında nəşr olunan kitablar, elektron daşıyıcılar zəngin elmi və mədəni potensialımızın dünyada tanıdılması, xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdir. Görülən işlərin bəhrəsi olaraq xalqımızın zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Xalqımıza Əcəmi Naxçıvani, Bəhruz Kəngərli, Mirzə Cəlil, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Yusif Məmmədəliyev, Əziz Şərif, Məmməd Araz, İslam Səfərli və digər görkəmli yaradıcı şəxsiyyətlər bəxş edən Naxçıvan torpağında əqli mülkiyyət və müəllif hüquqlarının qorunması sahəsindəki zəngin ənənələr bu gün də davam və inkişaf etdirilir. Muxtar respublikada kitab nəşri və müəllif hüquqlarının qorunması cəmiyyətin inkişafı və demokratik dəyərlərin tərkib hissəsi kimi diqqət mərkəzində saxlanılır. Son illər Naxçıvan şəhərində Kitab evinin fəaliyyətə başlaması, Naxçıvan Muxtar Respublika Kitabxanası binasının əsaslı şəkildə yenidən qurulması, elektron kitabxana sistemlərinin yaradılması bu istiqamətdə həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir.

Naxçıvan Muxtar Respublikasında təhsil və elm müəssisələrində də kitabxanaların müasir tələblərlə qurulması və maddi-texniki bazasının zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır. 2013-cü ildə Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanalar istifadəyə verilmiş, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana sistemi yaradılmışdır. Həmçinin muxtar respublikanın bütün yaşayış məntəqələrində, o cümlədən ucqar dağ kəndlərində zəngin fonda malik kitabxanalar istifadəyə verilmişdir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Bu da insanların kitaba olan marağını artırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində nəşr olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan xanlığı”, “Naxçıvan tarixi atlası”, “Naxçıvan folkloru”, “Naxçıvan teatrının salnaməsi”, “Naxçıvan milli geyimləri”, “Gəncliyimiz – gələcəyimiz”, “Naxçıvanda arxeoloji tədqiqatlar”, “Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan”, “Naxçıvan tikmələri”, “Uşaqlar və Günəş”, “Naxçıvan mətbəxi”, “Naxçıvan-Şərur el yallıları”, “Naxçıvan tarixi” çoxcildliyi və başqa kitablar tariximizi və milli dəyərlərimizi öyrənmək üçün dəyərli elmi mənbələrdir.

Müasir çap avadanlıqları ilə təchiz edilən nəşriyyatların istifadəyə verilməsi muxtar respublikada kitab nəşrinin sürətləndirilməsinə, yaradıcı insanların azad və maneəsiz fəaliyyətinə hərtərəfli imkanlar açmışdır. Naxçıvanda yaşayan yaradıcı şəxslər bu gün kitab nəşri sarıdan heç bir çətinlik çəkmirlər. Son 10 il ərzində muxtar respublika şair və yazıçılarının 500-ə yaxın kitabı işıq üzü görmüşdür.

*Müdriklər əbəs yerə deməyiblər ki, hər bir insanın cəmiyyətdə dəyəri onun oxuduğu kitablarla ölçülür. Kitablar gənc nəslin vətənpərvərlik, torpağa bağlılıq, ləyaqət, mərhəmət, xeyirxahlıq ruhunda tərbiyəsində əvəzsiz xəzinədir. Buna görə də muxtar respublikada yaradıcı insanlara qayğı göstərilir, onların əməyi qiymətləndirilir, müəllif hüquqları qorunur, kitab işi diqqət mərkəzində saxlanılır və mütaliə mədəniyyətinin inkişafı məqsədilə ardıcıl tədbirlər görülür.*

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Ümumdünya Kitab və Müəllif Hüquqları Günü qeyd edilib

***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Ümumdünya Kitab və Müəllif Hüquqları Gününə həsr olunmuş tədbir keçirilib.***



Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi aparatının rəhbəri Gülbuta Babayeva “23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür”, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev “İnsan mənəviyyatının zənginləşməsində kitabın rolu” mövzularında çıxışlar ediblər.

Bildirilib ki, kitab insanların yaradıcı təfəkkürünün məhsulu kimi hamının, xüsusilə uşaqların və gənclərin formalaşmasında əvəzsiz xəzinədir. Kitablar gənc nəsildə elmi və mədəni inkişafa, təbiətə maraq yaratmaqla bərabər, həm də yüksək əxlaqi keyfiyyətlər, milli-mənəvi zənginlik, vətənpərvərlik, torpağa bağlılıq, mərhəmət duyğuları aşılayır. Naxçıvan Muxtar Respublikasında da kitabxanalara, kitab nəşrinə, yaradıcı insanlara diqqət və qayğı göstərilir. Eyni zamanda muxtar respublikada müasir nəşriyyat və mətbəələrin fəaliyyət göstərməsi bu sahənin inkşafında mühüm rol oynayır.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova “Müəlliflik hüququnun insan hüquqları sistemində yeri” mövzusunda çıxışında ölkəmizdə intellektual, yaradıcı və əqli mülkiyyətlə bağlı yaradılmış qanunvericilik bazasından söhbət açıb.

Tədbirin sonunda kitab sərgisinə baxış olub.

Ümumdünya Kitab və Müəllif Hüquqları Günü muxtar respublikanın rayonlarında da qeyd edilib.

**Əli RZAYEV**

## Naxçıvanda Beynəlxalq Yer Kürəsi Günü münasibətilə aksiyalar keçirilib

***Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun ətrafında 22 aprel – Beynəlxalq Yer Kürəsi Günü münasibətilə “Yer kürəsi hamımızındır” devizi altında aksiya keçirilib.***





Gənc fəalların iştirakı ilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Canməmməd Canməmmədov çıxış edərək Beynəlxalq Yer Kürəsi Gününün yaranma tarixi barədə iştirakçılara ətraflı məlumat verib.

Bildirilib ki, Azərbaycan Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən ekoloji siyasətin əsas məqsədi gələcək nəsillərə minə mövcud ekoloji sistemin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə olunması ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. İnkişafın ekoloji baxımdan davamlı olmasını təmin etmək üçün iqtisadi fəaliyyət zamanı meydana çıxan ekoloji problemlərin həllinə daim diqqət artırılır.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında Beynəlxalq Yer Kürəsi Gününün mahiyyətini özündə əks etdirən genişmiqyaslı tədbirlər təşkil edilir, gənclərin həmin tədbirlərdə yaxından iştirakı təmin olunur. Bu istiqamətdə görülən işlərə gənclərin təmizlik aksiyalarını, təbiət guşələrinə ekskursiyaların misal göstərmək olar.

Vurğulanıb ki, “Yer kürəsi hamımızındır” adlı aksiyanın keçirilməsində məqsəd gənclərin diqqətini ekoloji məsələlərə cəlb etməkdir.

Sonra gənclərin iştirakı ilə təmizlik aksiyasına start verilib.

Gənclər yaşıllıq zolağındakı ağaclara aqrotexniki qulluq göstəriblər, ətrafda səliqə-sahman yaradıblar.

Daha sonra “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olan gənclər çay süfrəsi arxasında ekologiyanın mühafizəsində gənclərin rolu barədə diskusiyalar aparıblar.

* * *

***Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Sağlamlığımız təbiətin əlindədir” devizi altında ekoloji aksiya keçirilib. Beynəlxalq Yer Kürəsi Günü münasibətilə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat bağında keçirilən aksiyada muxtar respublikanın orta ixtisas təhsili müəssisələrinin tələbələri və Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin dərnək üzvləri iştirak ediblər.***



Əvvəlcə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Rasim Məmmədov çıxış edərək keçirilən tədbirin mahiyyəti haqqında məlumat verib. Bildirilib ki, 22 aprel bütün dünyada Beynəlxalq Yer Kürəsi Günü kimi qeyd olunur. Bu gün planetimizdə həyat üçün zəruri olan təmiz su, torpaq və hava bayramı da adlandırmaq olar. Əsas məqsəd ətraf mühitin mühafizəsindən, yaşıllıqların salınmasından, meşə zolaqlarının, nadir və kökü kəsilməkdə olan ağac və gül kollarının qorunmasından ibarətdir.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2003-cü il tarixli Fərmanı ilə təsdiq olunmuş “Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında” Azərbaycan Respublikası Qanununda ekoloji təhsilin fasiləsizliyi bu sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul edilib. Eyni zamanda ölkə başçısının 28 sentyabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında Ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı”nda ekoloji maarifləndirmənin genişləndirilməsi əsas vəzifələrdən biri kimi göstərilir.

Vurğulanıb ki, muxtar respublikamızda aparılan ekoloji tədbirlər qədim diyarımızın zəngin təbiətinin hər kəs tərəfindən qorunmasını zəruri edir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi də yaradılmış ekoloji mühitin qorunması və zənginləşdirilməsi istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsinə çalışır.

Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin direktoru Bahadur Fərəcov, mərkəzin müəllimi Arzu Məmmədov, “Şərq qapısı” qəzetinin əməkdaşı Səbuhi Həsənov muxtar respublikada həyata keçirilən ekoloji tədbirlərdən danışıb, ətraf mühitin mühafizəsinin hər kəsin vətəndaşlıq borcu olduğunu bildiriblər.

Sonra aksiya iştirakçıları Nəbatat bağı ilə tanış olub, buradakı yaşıllıqlara qulluq göstəriblər.

Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin dərnək üzvlərindən Esmira Əsgərova, Cəvahir Seyidli, Tahir Bağırov və Qəhrəman Qənbərli bu cür aksiyaların keçirilməsindən razı olduqlarını bildiriblər, ətraf mühitin mühafizəsinin sağlamlığımıza böyük təsir göstərdiyini deyiblər.

**Xəbərlər şöbəsi**

# NAXÇIVAN FOTOLARDA

*Bu şəkillər başqa bir xarici ölkədə yox, məhz Naxçıvanda çəkilib. "Şərq qapısı" qəzetinin foto-müxbiri Əli Xudiyev bu gözəl diyarı müxtəlif fotoşəkillərdə əks etdirib.*
















Xeberoxu.com
informasiya saytı

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 316